DOI: 10.36719/AEM/2007-2020/51/84-86

**Turan Əlbəndə qızı Şahvələdli**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
91turan@gmail.com

# EŞİTMƏ POZULMALARI OLAN UŞAQLARIN NİTQ İNKİŞAFININ ÖYRƏNİLMƏSİ TARİXİ

***Açar sözlər:*** *mimik sistem, şifahi metod, təmiz şifahi metod, səs metodu, belçika metodu*
***Key words:*** *mimic system, oral method, pure verbal method, sound method, Belgian method*
***Ключевые слова:*** *мимическая система, устный метод, чистый устный метод, звуковой метод, бельгийский метод*

İntibah dövründə surdopedaqoqika karlığın təbiəti haqqında biliklərlə zənginləşərək dini baxışlarla mübarizə apara apara inkişaf edirdi. Bu dövrün dini fikirlərinə əsasən, dünyaya kar insanın gəlməsi valideynlərin günahlarınınn nəticəsidir. XV əsrdə Niderland alimi, Rudolf Aqrikola (1443-1485) karların təlimi haqqında əvəllər məlum olmayan faklar aşkarlamışdı. O özünün “Dilektikanın kəşfi haqqında” kitabında yazırdı: “Nə qədər təccüblü olsa da, mən öz gözlərimlə görmüşəm ki, uşaqlıqdan kar və çox güman ki, həm də lal olan birisi başa düşməyi, anlamağı öyrənmiş, digəri isə sanki danışa bilirmiş kimi fikirlərini yazıda dəqiqliklə ifadə etməyi öyrənmişdir. R.Aqrikola bu faktlar haqqında möcüzə kimi deyil, müəyyən təlim metodlarının nəticələri kimi danışırdı. Qeyd olunmuş halda karın ətraf mühitlə ünsiyyət vasitəsi kimi yazılı nitqdən istifadə olunurdu.

İspanyada karların təlimi haqqında ilk məlumatlar P.Ponsenin fəaliyyəti ilə bağlıdır. P.Ponse öz kar şagirdlərini yazılı, daktil və şifahi nitq formalarına öyrədirdi. O təlimi ünsiyyət vasitəsi və lüğətin zənginləşməsi kimi qəbul edirdi. Bu məqsədlə, üzündən oxumaq və oxuduğunu danışmaqdan geniş istifadə edirdi. Hətta onun bəzi şagirdləri nəinki oxunu, yazını, hesabı öyrənmiş, hətta doğma ispan dilindən başqa latın və yunan dillərini də öyrənə bilmişlər.

XVII-XVIII əsrlərdə ümumi pedaqogikanın proqressiv ideaları surdopedaqogikanın inkişafı üçün yeni imkanlar açırdı. Bu dövrdə karların fərdi təlimi daha geniş vüsət almışdır. Fərdi təlim Almanya, Fransa, Niderland, İngiltərə kimi ölkələrdə təcrübədən keçirilirdi. Bu dövrdə surdopedaqogikada karlara şifahi nitqin təlimi üzrə iki istiqamət ayrılmışdır. I istiqamətə əsasən P.Ponsenin, X.P.Bonetin (İspanya), D.Vulverin, D.Vallisin (İngiltərə) təcrübələrinə əsaslanaraq daktil nitqdən istifadə olunurdu. Digər istiqamətin tərəfdarları isə kar uşağa şifahi nitqi normal eşidən uşaqlar kimi təlim keçməyə cəhd edirdilər. Bu istiqamətlər karlar üçün xüsusi institutların açıldığı dövrdən sonra da inkişaf etməyə davam edirdi. Nəticədə karların təlimi üçün iki sistem “Mimik sistem” və “Şifahi sistem” formalaşdı.

Karlarla ünsiyyət praktikasında Ş.M.Epe jestlərdən istifadə edirdi. Sonralar Ş.M.Epe yazırdı: Hər bir lalkar təlimə başlayarkən artıq özü üçün adi nitq kimi asan və yüngül olan xüsusi fərdi dilə malikdir. Kar uşaq jest nitqi vasitəsi ilə öz təlabatlarını, arzularını, yönəlişliyini, xəstəliyini, kədərini və s. bildirə bilir. Əgər başqaları da öz hislərini bu tərzdə ifadə edə bilirsə, kar uşaq onu anlamaqda çətinlik çəkməyəcək.

XVIII əsrdə Almanyada müəllim Samuil Geynike tərəfindən karların təlimi üçün “Şifahi metod” sisteminə əsaslanan xüsusi institut açılmışdır. O oxumağı öyrənmək üçün “Səs metodu” dan istifadə edirdi. Bu metod vasitəsi ilə S.Geynike kar uşaqları qısa müddətdə oxumağı öyrədirdi.

XIX əsin I rübündə avropada karlar üçün açılmış 50 təlim strukturu var idisə, artıq əsrin sonuna belə müəssisələrin sayı 400-dən artıq idi. XIX əsrin sonuna bir sıra avropa ölkələrində karların mütləq təhsili haqqda qanunlar qəbul olunmuşdur (Daniya, İsveç, Norveç). Digər ölkələrdə belə qanunlar bir qədər gec XX əsrdə qəbul olunmuşdu. XIX əsrin sonunda karlar üçün məktəblərdə təlim müddəti 8-9 ilədək uzadılmışdı. Bu məktəblərdə kar uşaqların hər hansı bir sənətə yiyələnmələrinə üstünlük verirdilər.

XIX əsrdə qərbi avropa ölkələrində və ABŞ-da karların təlimi üçün müxtəlif sistemlərdən istifadə olunurdu: “Vena metodu”, “Şifahi metod” (Almanya), “İntuitiv” və ya “Ana metod” (Fransa), “Təmiz şifahi metod” (İtalya), “Kombinə olunmuş metod” (ABŞ). Bu sistemlərin ümumi cəhətləri çoxdur. Onlar arasında fərq isə karların ünsiyyət prosesində şifahi yaxud jest nitqinin rolundan və istifadə olunma yerindən asılıdır.

XIX əsrin II yarısında ABŞ-da məşhur surdopedaqoqlardan Aleksandr Melvil Belli qeyd etmək (1819-1905) lazımdır. 1849-cu ildə o “Gözlə görünən nitq” adlı kəşfini etmişdir. Hər bir səs xüsusi işarə ilə bildirilirdi. “Gözlə görünən nitq” səslərin artikulyasiyası fonetik sistemi idi.

XIX əsr surdopedaqoqları arasında fransız müəllimi R.A.Sikar öz xüsusi baxışı ilə məşhurdur. O, karların təlimi prosesində əşyalardan və şəkillərdən istifadəni ünsiyyət üçün ilk addım adlandırırdı. Surdopedaqoji praktikasının ilk illərində R.A.Sikar daktil əlifbadan istifadə edirdi. Öz təlimində o əşyalar, şəkillər və

jestlərdən istifadə edirdi. R.A.Sikar öz kitabında qeyd edirdi: "Mən stola qara lövhə və onun da üzərinə bir neçə əşya qoyaraq şəkillərini çəkirəm. Bu əşyalar fərqli olmalı, lakin həyatda tez- tez rast gəlinməlidir. Məsələn bıçaq, qələm, açar və s. Lalkar olan bir baxışla əşya və onun təsviri arasında əlaqəni görməlidir. Mən əşyanı və şəkli bir daha göstərməklə onun diqqətini uyğunluğa cəlb edirəm. Bu cür ikili fənddən istifadə etməsək, lalkar sözlərlə həmin sözü təşkil edən hərflər arasında əlaqəni qura bilməz. İlk dərsdə lalkar üçün əşyalar sözü əvəz edir. Lalkara yönəlmiş nitq onun gözlərinə istiqamətlənmişdir. İlk dərsində R.A.Sikar sözlər və hərflərdən danışmırdı. O, şagirdlərinə əşyaları təsvirləri ilə müqayisə etmək bacarığı aşılayırdı. İkinci mərhələdə isə şagird əşyanın təsvirindən özü müstəqil olaraq onun yazılışına və çəkilişinə keçməli idi. Beləliklə o əşyanın adını işarələr və yazılar ilə təsvir etməyi öyrənirdi. Üçüncü mərhələdə isə R.A.Sikar qramatik təlimə keçirdi. Bu mərhələ cümlədə sintaksis əlaqələrin öyrənilməsindən başlanılırdı.

XIX əsrdə Almaniyada ən proqressiv surdopedaqoqlardan Fridrix Moris Gil (1805-1875) olmuşdur. O Vayzenfels şəhərində karlar üçün olan xüsusi məktəblərdən birinə müəllim vəzifəsinə təyin olunmuşdur. Burada o 40 il işləmişdir. 1838-ci ildə "Karların təlimi üzrə rəhbərlik", 1839-cu ildə "Karlara şifahi nitqin, dodaqdan oxumanın, yazı və oxunun öyrənilməsi üzrə rəhbərlik", 1840-cı ildə "Karlara dilin öyrədilməsi üzrə rəhbərlik", 1841-ci ildə "Karlar üçün şəkillər albomu" adlı kitabları nəşr olunmuşdur. Ədəbi fəaliyyətində F.M.Gil geniş pedaqoji təcrübədən istifadə edirdi. Öz kitablarında o göstərirdi ki, karların təlimində də normal eşidən uşaqların təlimi kimi, məqsəd eyni olmalıdır- uşaqları zəhmətkeş və əxlaqlı vətəndaş kimi tərbiyə etmək. F.M.Gilin fikrincə ancaq mexaniki olmayan şüurlu təlim səmərəli ola bilər. Bunun üçün dərslərdə yeganə qaydaya- karlar da normal eşidənlərlə birlikdə ümumi üsullarla öyrədilməlidir- riayət olunmalıdır.

XIX əsrdə karlar üçün avropa institut və məktəblərində formalaşmış "Təmiz şifahi metod" sistemi müəllimlərin, valideynlərin və xeyriyyəçilərin diqqətini cəlb edirdi. Bu sistem əsasən kar uşaqların məişət danışıq nitqini və qramatikanı mənimsəmələri ilə şərtlənirdi. Nəticədə uşaqlar ətraf mühitə daha tez uyğunlaşır və sonradan ictimai əmək fəaliyyətində özlərinə məxsus yer tuta bilirdilər. Lakin hələ də bir çox məktəblərdə müəllimlər fransız və vena sistemlərinə tərəfdar idilər. 1879-cu və 1880-ci illərdə keçirilən konqreslərdə karların təlimində vahid sistemdən istifadə etmək qərara alındı. İlk konqress Parisdə keçirilmişdir. Bu konqresdə gözlənilən nəticələr əldə oluna bilmədi. İkinci konqress Milanda keçirildi. Burada "Təmiz şifahi metod"-dan istifadə etmək qərara alındı. Konqresdə deyilirdi ki, karlara şifahi nitq öyrədilərkən iki ünsiyyət vasitəsindən – şifahi və jest nitqindən istifadə etmək olmaz. Hər iki nitq vasitəsinin istifadə edilməsi səs nitqinin mənimsənilməsinə, dodaqdan oxumağa və fikrin düzgün qrammatik sözlə ifadə olunmasına maneçilik törədirdi. Konqresdə söhbət sonradan kar olmuş uşaqlardan gedirdi. İştirakçıların fikrinə görə, bu kateqoriyadan olan uşaqlara normal eşidən və danışan uşaqlarla eyni metodiklar vasitəsilə dərs keçirilməlidir. Konqresdə belə təkliflər irəli sürülmüşdür ki, ilk təlim dövründə kar uşaqlar sadə qrammatik qaydalarla tanış olmalıdırlar. Əsas təlim pilləsində isə mürəkkəb qrammatik qaydalara keçid təmin olunmalıdır. Konqresin qərarına görə kar uşaqlara şifahi nitqin öyrənilməsinin ilk mərhələsində intuitiv metod universal idi. Lakin konqresin iştirakçıları bir sıra halları nəzərə almırdı. Məsələn, bəzi avropa dillərini "Təmiz şifahi metod" sistemi ilə öyrənmək çox çətin idi. Bu sistemdən ancaq təlimin ilk mərhələlərində istifadə etmək olardı. Təlimin ilk 3-4 ilində kar uşaqlar səslərin tələffüzünü və elementar məişət nitqini mənimsəyirdilər. 5-ci – 8-ci illər ərzində onlar lüğəti genişləndirmək təlabatı ilə ümumi təhsil bilikləri alırdılar. Sonralar XX əsrdə keçirilmiş digər konqreslərdə kar uşaqların proffessional hazırlığı vacib yer tutmağa başladı. Həyat karlardan təkcə ünsiyyət yaratmaq bacarığını deyil, həm də ictimai istehsal şəraitində əmək fəaliyyətinə hazırlığı da tələb edirdi. Bu da "Təmiz şifahi metod" sistemində dəyişikliklərin olduğunu biruzə veririrdi.

XIX əsrin sonu XX əsrin əvvəllərində surdopedaqogikada yeni istiqamətlər yarandı:

- **Birinci istiqamət analitik ənənəvi təlim -** nəticə görmə kinestetik əsasda şifahi nitqə öyrənmə;
- **Ikinci istiqamət -** yazı nitqindən istifadə etmək;
- **Üçüncü istiqamət -** akustik yönüm- qalıq eşitmənin inkişaf etdirilməsi;
- **Dördüncü istiqamət -** əl vasitələrindən – daktilalogiya və jest nitqindən istifadə etmə.

XX əsrin əvvəllərində Belçikada kar uşaqların təlimində yeni metoddan "Demutizasiyanın Belçika metodu" dan istifadə etməyə başladılar. Bu metod əsasən "Təmiz şifahi metod"- da olan məhdudiyyətlərin aradan qaldırılması ilə yaranmışdır. Onun əsasına həkim pedaqoq Ovid Dekroli (1871-1933) tərəfindən işlənilmiş elementlər daxil edilmişdir. O.Dekroli intellekt geriliyi olan uşaqların təlimi ilə məşğul olurdu. Uşaqla ünsiyyət yazı və kartlar vasitəsi ilə qurulurdu. Artıq XX əsrin 30 cu illərində bir sıra Alman müəllimləri "Belçika metodu"-nu tənqid edirdilər. Məhz "Belçika metodu" kar uşaqların təlimində tamamlayıcı mərhələ oldu. Bu metodda hər bir fəaliyyət uşağın hafizəsinə, assosiativ təfəkkürünə və elecə də gördüyü nümunələri sözlə ifadə etmək bacarığına əsaslanırdı. Bu zaman nitqdən sistematik bilik vermək üçün deyil, ancaq ünsiyyət yaratmaq üçün istifadə olunurdu. Artıq XX əsrin 50 illərindən etibarən karlara münasibət daha çox differensiallaşmışdır. Beləki, "lalkar" termini daha dəqiq və konkret hallarda istifadə olunurdu.

Artıq XXI əsrdə "İnklüziv təhsil" modeli daha çox aktuallıq qazanmış və geniş tətbiq olunmağa başlamışdır. "İnklüziv təhsil" modeli xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili ilə yanaşı onların cəmiyyətə uğurlu inteqrasiyasını və inkişafını nəzərdə tutur.

**Ədəbiyyat:**

1. Басова А.Г., Егоров С.Ф.История сурдопедагогики: Учеб. пособие для студентов дефектол. фак. пед. ин-тов. М.: Просвещение,1984
2. Богданова Т.Г. Сурдопсихология. М.: Академия, 2002
3. Речицкой Е.Г. Сурдопедагогика М.: Владос, 2004

**History of speech development studies in children with hearing impairment**

**Summary**

The development of surdopedagogy opened new opportunities for personal training for the deaf. In general, a number of methods were used for deaf learning: "Oral method" (Germany), "Clean oral method" (Italy), "Belgian method", "Combined method" (USA), "Intuitive" or "Main method" (France). These systems have many things in common. The difference between them depends on the role of the spoken or gesture speech and the location of the deaf in the communication process.

**История изучения развития речи у детей с нарушениями слуха**

**Резюме**

Развитие сурдопедагогики открыло новые возможности для индивидуального обучения глухих. В целом, для обучения глухого использовались ряд методов: «Устный метод» (Германия), «Чистый устный метод» (Италия), «Бельгийский метод», «Комбинированный метод» (США), «Интуитивный» или «Основной метод» (Франция). Эти системы имеют много общего. Разница между ними зависит от роли устной или жестовой речи в процессе общения глухих.

**Rəyçi: dos.T.H.Ağayeva**

Göndərilib: 10.02.2020 Qəbul edilib: 13.02.2020